*A.Əhmədova. Ədəbiyyatda və rəssamlıqda yuxu semiotik element kimi // Əlyazmalar yanmır, 2019, № 2 (9), s.222-226.*

UOT: 82; 159.963.3

**Aliyə Əhmədova**
*Filologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dillər Universiteti,*
*Bakı ş. Rəşid Behbudov küç. 134*
*e-mail: aliye.axmedova82@mail.ru*

# ƏDƏBİYYATDA VƏ RƏSSAMLIQDA YUXU SEMİOTİK ELEMENT KİMİ

*Məqalədə ədəbiyyatda və rəssamlıqda yuxu fraqmentlərinin istifadəsindən danışılır. Qədim sivilizasiyaların, əski mədəniyyətinin dərin qatlarında yuxu etnik-mifik və semiotik element olaraq kultural yaddaşımızın təzahür forması kimi qarşımıza çıxır. Bu baxımdan, məqalədə yuxunun həm fizioloji, həm də psixoloji hadisə olaraq incəsənət aləmində mühüm diskurs vasitəsinə çevilməsindən və təzahür formalarından bəhs olunmuşdur.*

***Açar sözlər**: simvol, yuxugörmə, məna, bədii priyom, psixoloji*

## Giriş

*Yuxu psixikamızın məhsulu olaraq fizioloji və psixoloji inkişafımızda mühüm rol oynayan mental prosesdir. Yuxunun fizioloji mexanizminin öyrənilməsində qarşımıza çıxan faktlar təstiqləyir ki, yuxu bizə bizi anlatan daxili səsimizdir. Yuxu universal simvollar, işarələr vasitəsilə daxili dünyamızdan xəbər verir. Digər tərəfdən elm yuxunun daxili səsimiz olmasını onun mükkəməl fizioloji quruluşu ilə əlaqələndirərək isbat edir ki, yuxu nəinki psixi durumumuzdan, hətta fizioloji durumumuzdan da xəbər verə bilmək iqtidarına sahibdir.*

Müasir dövrdə somnologiya sahəsinin inkişafı maraqlı fakt ortaya qoydu – qan dövranı yuxu sistemi ilə paralel fəaliyyətdədir və daxilimizdə əsrarəngiz daxili harmoniya var. Tibbi nöqteyi nəzərdən qanın tərkibi ilə yuxugörmə prosesi arasında müntəzəm əlaqə var. Hansısa xəstəliyə yoluxan insanın qanında (xəstəliyin növünə uyğun) spesifik dəyişilmələr müşahidə olunur və bu dəyişilmələr beyinə qanın intensiv daşındığı zaman, yəni yuxugörmə prosesində öz təzahürünü tapır. Bütün daxili orqanlar sinir ücları vasitəsilə beyinlə bilavasitə əlaqədə olduğuna görə yaranmış hər hansı bir fizioloji fəsad daxili həyəcanın qanda yüksəlməsinə yola açır. İnsan hələ hansısa xəstəliyə yoluxduğunu anlamadan daxili orqanlar həyəcan təbili çalaraq beyini bu hadisədən xəbərdar etməyə çalışır. Qısası, xəstəlik qana, qan yuxuya, yuxu beyinə zəncirvari xəbər ötürərək orqanizmdə müdafiə funksiyasının aktivləşməsinə səbəb olur. Alimlər belə qənaətə gəliblər ki, sarılığı bir həftə, hipertoniyanı 2-3 ay, beyindəki törəməni bir il əvvəl yuxugörmənin müşahidə olunması vasitəsilə diaqnozlaşdırmaq mümkündür. Bəzən kabuslar, bəzən qırıq-qırıq eyni motivli epizodlar, bəzən heç yuxu görməmə, bəzən rəngsiz, bəzən küylə müşahidə olunan və s. bir sözlə, hər insanda individual olaraq fərqli səpkili yuxugörmə vasitəsilə daxili dünyamızdan xəbər almaq mümkündür.

Qədim sivilizasiyaların əski mədəniyyətinin dərin qatlarında yuxu etnik-mifik element olaraq kultural yaddaşın təzahür forması kimi qarşımıza çıxır. Yunqun yuxu haqqında araşdırmaları bu faktı təstiqləyir. Alim düşünür ki, hər bir insanın gördüyü yuxu onun kultural yaddaşının inikasıdır və burada arxetiplər böyük rol oynayır. Biz beynimizdə mövcud olanı və genetik yaddaşımızda daşıdıqlarımızı yuxuda görə bilərik.Tanımadığımız və yad bir nəsnə

yuxumuzda əks oluna bilməz. Belə ki, yuxu psixikamızın daxilindən gələn səsdir. Freyd isə daima təkrarlanan yuxu fraqmentlərini simvol kimi dəyərləndirərək universal simvol anlayışını ortaya qoyurdu. O düşünürdü ki, yuxu gizli mənadır onun interpretasiyaya ehtiyyacı var. Yuxunun belə bir maraqlı hadisə olması ədəbiyyat sahəsində də ona böyük marağın yaranmasına gətirib çıxardı. Müəllif bədii kontekstin gedişatı ilə bağlı tapmaca fikirləri və ya özünün ən məxfi düşüncələrini oxucuya ötürmək üçün yuxu fraqmentlərindən istifadə edir. Bədii priyom olaraq yuxu oxucuyla müəllifi üzləşdirən və onların hermetik dialoqunu təşkil edən vasitədir. Yuxu fraqmenti vasitəsilə oxucu əsərə münasibətini dəyişir və süjetin gedişatını ön görür. Çünki yuxu fraqmenti mütləq şəkildə bədii kontekstdə hansısa missiya daşıyır. Bu missiya bədii əsərin süjet və kompozisiya xətti ilə bilavasitə əlaqədar olur. Belə ki, bədii konteksdə yuxu kompoziya xəttində düyünü açmaq üçün yardımçı vasitədir. Qısa yuxu fraqmenti oxucunu əsərin əsas intriqasını təhlil və təhqiq etməyə yönləndirir.

Dünya ədəbi bədii fikrində yuxu janrından istifadə mistitizmlə bağlıdır. Bədii kontekstdə yuxu reallıqla qeyri-reallıq arasında sərhəddir və müəllif əsərinə mistik fon vermək məqsədilə yuxu elementlərindən istifadə edir. Bildiyimiz kimi, mədəniyyətlə ədəbiyyatın əzəli-əbədi münasibəti bəşər nəslinin keçmişini və bu gününü sənət nümunələrində uğurla təcəssüm etdirməyə xidmət etmişdir. Antik təfəkkürün dünya mədəniyyətinə bəxş etdiyi ölməz sənət nümünələri incəsənətin bütün sahələrini, o cümlədən ədəbiyyatla rəssamlığı öz ətrafında birləşdirməyə müfəvvəq olmuşdur.

Qədim Yunan mifologiyasının ən yaraşıqlı gənci hesab edilən Endimion qərəzli münasibətin qurbanı olur. Zevs Endimionun arvadı Hera ilə olan münasibətindən şübhələnərək Latmos dağında gəncliyi solub bitənə kimi 30 il sərasər yatmaqla cəzalandırır. Endimionla bağlı mifin bir neçə variantı mövcuddur. Digər versiyaya görə Zevs Endimionun heç bir istəyinə yox deməzmiş və yaraşıqlı gənc gözəlliyi əbədi olsun deyə baş allahdan xahiş edir ki, ona 30 illik yuxu bəxş etsin. Beləcə, Zevs yuxu tarnısı Hipnosa tapşırır ki, Endimionu yuxuya versin. Başqa mənbəyə əsasən Endimiona dəlicəsinə aşiq olan Selena hədsiz qısqandığı üçün onu yuxuya verir ki, məşuquna ondan başqası baxa bilməsin və onun hüsnü-camalını hər gecə rahat-rahat seyr edə bilsin. Mifə görə Endimion Selenaya biganə qalmır və onların nə az, nə çox düz 50 qızı dünyaya gəlir və bu rəqəm Olimpiya oyunları arasındakı 50 ay aralığını simvolizə edir. Bu miflə bağlı günümüzə gəlib çatan ən dəyərli əsərlər arasında yunan satirasının ustası Samosatlı Lukianın (b.e 120-195) 25 miniatur kitabdan ibarət "Allahların Söhbəti" adlı ironik toplusuna daxil olan "Afroditayla Selenanın söhbəti"ndə (XXI kitab) rast gəlmək mümkündür. Burada Selena Afroditaya məşuqunun gözəlliyini vəsf edərək ona olan dərin məhəbbətindən söz açır. Bundan başqa Endimion obrazına müraciət edənlər arasında Con Lili ("Endimion", 1588), Con Kits ("Endimion", 1818), Henri Lonqfellou ("Endimion",1866), Oskar Uaylt ("Endimion", 1881) və digərlərini göstərmək olar. Endimionun maraqlı həyat yolunu və Ay ilahəsi ilə olan ülvi məhəbbətini işıqlandıran müəlliflər ikiyə bölünmüşlər - bəzisi roma mifologiyasına istinadən onun sevgilisini Diana (baş ilahə Heranı Yuno, Zevsi-Jupiter), digərləri ilə yunan mifologiyasında qeyd olunduğu kimi Selena adlandırmışlar. Fərqli nüanslara baxmayaraq mif 30 illik yuxuya dalan çoban Endimionla Ay ilahəsinin sevgisindən bəhs edir. Bu məhəbbət hekayəsindən təsirlənən XIX əsr fransız rəssamı Ann Lui Jirode Triozon (1767-1824) Endimionun mifologiyada mət edilən qeyri-adi gözəlliyini bu cür təsvir etmişdir. Əsər "Endimionun yuxusu" (1791) adlanır və hazırda Luvr müzeyində saxlanılır.

Kompozisiyada gecəni işıqlandıran bəyaz nur Selenanın simvolizə edir - sevgilisi ay işığı olub, hər gecə onun üzərinə düşərək baxışlarını ondan çəkmir. Mifoloji təfəkkürə söykənərək ideal gözəlliyin qorunmasında yuxunun əhəmiyyətini vurğulayan bu kompozisiya antik dövrdən çağdaş dövrümüzə gəlib çatan bu müdrik fikri müasir somnologiyanın elmi nəzəriyyələri ilə səsləşdirir.

Mifoloji elementlər, simvollar, mistik detallarla zəngin sənət nümünələri ilə Uilyam

Bleyk XIX əsr mədəniyyətinin inkişafında özünəməxsus rol oynamışdır. Bleyk düşünürdü ki, yalnız yaradıcı təxəyyülə sahib şəxs sənətkar ola bilər. Gənc şairin poemalarındakı dərin fəlsəfi anlam mədəniyyətin və tarixin əski qatlarına metafizik don geydirirdi. Bleykə görə yuxu adi hadisə deyil, insanın axirətdəki kimi fövqəl qüvvələrlə idarə olunduğu virtual məkandır. Bleykin kosmoqonik təsəvvürləri ayrı dünyaları yaxın edir - ölümlə həyat paralel xəttdir – yuxarı aşağını, aşağı yuxarını aydın görür. Bleyk yuxuya metafizik yanaşaraq axirətlə həyat arasındakı sərhədi incəldir. Əhti-Ətiqə daxil olan "Cobun kitabı"nın əsas məzğini qravürləmə üsulu ilə illüstrasiya edən Bleyk əzəli-əbədi mübarizə içində olan Allahla Şeytanın bəşər nəsli üzərində iqtidar savaşını tərənnüm etdirir.

Şairin dini dünyaduyumunu təcəssüm etdirən əsər fövqəl qüvvələrin yuxudakı hakimiyyətini qabardır. Əsərdə mələk cildinə girmiş şeytan və əyyanları Cobu yuxusunda narahat edirlər. Yatağın altından yüksələn cəhənnəmin alovları carəsiz, tərpənə bilməyən Cobu vahiməyə salır. "Cobun Şeytani Yuxuları" (1825) adlanan bu əsər Bleykin Bibliyadan götürdüyü "Cobun kitabı"nın illüstrasiyasına həsr olunan 22 qravüradan biridir.

XIX əsrin məşhur rəssamı İohan Henrix Fyüzli (1741-1825) İngilis nağıllardan təsirlənərək özünün "Gecə kabusu" (1781) kompozisiyasında kabus və qarabasmalarımızın səbəbi kimi insanın daxilindəki şeytanın insan yatanda oyanması şəklində təqdim edir. Kompozisiya sadədir - yatağa yayılan gənc qızın sinəsində inkuba (demon) obrazının əksi təsvir olunmuşdur. Şəkildəki obrazın yayxanmış vəziyyətdə yatmasını təsvir edən rəssam yuxunun fizioloji quruluşunu müfəssəl bilməsini təstiqləyir. Yuxugörmə yalnız tez yuxu fazasında baş verir ki, bu da insanın bütün əzələlərinin boşalması ilə müşahidə olunur. Lakin burada yuxugörmə prosesindən ziyadə yuxu iflici təsvir olunmuşdur. Yuxu iflici zamanı şüur olub bitənləri dərk edərək, yuxugörmə prosesinin içində olduğunu anlayır lakin, bədənə nəzarət edə bimir. Şüur bədənə "oyan" komandası versə də, bədən tam hərəkətsiz halda yuxugörməyə davam edir. Yuxu iflici zamanı yuxugörmənin sürəti və intensivliyi yüksəlir deyə yuxudan ayılmaq bir qədər çətinləşir və insan əsasən kabus görür. Fyüzli insanın cisminə həbs olunduğu bu halını mükəmməl şəkildə öz sənət əsərində təsvir edə bilmişdir. Gənc qızın sinəsinə ağırlığını salan inkuba və kənardan görsənən at başı təhtəlşüurun proyeksiya etdiyi kabus elementləri kimi başa düşülə bilər. Freyd bu əsəri (əsli Detroit müzeyində) öz qəbul otağının divarından asaraq Fyüzlinin yuxu fəlsəfəsinə doğru yanaşmasını təstiqləmiş olur.

Fyüzli yuxu mövzusuna müraciət etdiyi dört kompozisiyadan biri də Con Miltonun "İtirilmiş Cənnət" poemasının motivləri əsasında çəkilən "Çobanın yuxusu" (1793) əsəridir. Burada müəllif Con Miltonun poemasındakı mələklərin cəhənnəmə enərək oradan keçən gənc çobanı musiqinin səsi və rəqsləri ilə ovsunlayaraq yuxuya vermələri səhnəsini təsvir etmişdir.

Seçdiyi qara tonlarla cəhənnəmə deyil, ora düşənlərə baxmaq lazımdır ideyasından çıxış edən sənətkar buranı qaranlıq təsvir edərək oradakı obrazlara diqqəti yönəltməyə çalışmışdır. Əsərində heç bir dini personajın yer almamasına baxmayaraq, Fyüzli dini səpkili əsər yaratmağa müvəffəq olmuşdur.

Müəllifin bu mövzuya həsr olunmuş digər iki əsəri Şekspirin "Henri VIII" və Vergilinin "Eneida" poemalarının motivləri əsasında çəkdiyi kompozisiyalardır. Fyüzli etiraf edirdi ki, bədii əsərləri rəsmə köçürərək ölümsüzləşdirməkdə ona Bleykin təsiri olmuşdur və elə buna görə də rəssam özünü onun xələfi hesab edirdi. Bleykin romantizm estetikasına qazandırdığı yaradıcılıq istiqamətləri dünənimizdən bügünə kultural körpü salaraq bizi sakral aləmin bir parçası edir.

Yuxunun metafizik qatlarını onun fizioloji mexanizmi ilə bağdaş şəkildə təcəssüm etdirən Fransisko Qoya (1746-1828) isə portretdə ispan atalar sözünə yer verir - "Şüurun yuxusundan bədheybətlər doğar" (1797-99) və eyni adı əsərinə verən müəllif qorxulu yuxuların psixikamızın məhsulu olduğunu vurğulayır:

Başını stola dayayıb mürgü vuran şəxsin başından yuxarıya doğru bəyquşlar və yarasalar uçaraq yuksəlirlər. Qaranlığı sevən bəyquşlar vahimə yaradan parlaq gözləriylə şikar

axtarışındadırlar. Heç bir müqavimət göstərmədən bəyquşları və yarasaları kənardan seyr edən pişiyin qulaqlarını tam dik təsvir olunub, bu onun ətrafındakı hadisəyə biganə olmadığını göstərir. İspan folkloruna müraciət və xalqının folklor ənənələrində iblisi və şər qüvvələri simvolizə edən bu məxluqlar mühüm etnik–mədəni element kimi Qoyanın təsvirində ispan milli-mədəni dəyərlərini təcəssüm etdirir. Digər tərəfdən Qoya öz vətənpərvərlik hisslərini nümayiş etdirməyə çalışırdı ki, xalqın rəğbətini və diqqətini öz sənətinə yönəldə bilsin. Yeri gəlmişkən, yatan şəxsin başını qoyduğu stolun yan tərəfinə əsərə başlıq seçilən həmin o atalar sözü ispanca yazılmışdır.

Oldoks Haksli Qoyanın bu kompozisiyasının interpretasiyasına bir qədər siyasi don geydirir. Ölkədəki siyasi vəziyyətin Anqlo-İspan qarşıdurması (1796-1808) ilə əlaqədar gərgin olması, üfüqdə Napaleon inqilabının gözlənilməsi İspan xalqının azadlıq və rifah mübarizəsini gücləndirdi. Yazıçı iddia edir ki, rəssam dövrün sosial-ideoloji durumundan, habelə tarixi hadisələrin gedişatından dərindən təsirlənmişdir və öz xalqının milli-mədəni düşüncələrini, daxili izdirablarını, haqsızlıq haraylarını əks etdirmək üçün öz əsərində hürriyyətin, rifahın, əminamanlığın təmin olunması yolunun insan məşəqqətlərindən keçməsini vurğulamağa çalışmışdır. Qoya "yuxuda olana" qalib gəlmək asandır deyərək, yuxuda hücüma məruz qalan şəxsin timsalında İspaniyanı təcəssüm etdirərək xalqını oyanmağa dəvət edir. (Bu, bizə assosativ şəkildə Sabiri xatırladır). Rəssamlıqda və ədəbiyyatda yuxu fraqmentlərindən istifadə semoitik planda əsərə gizli interpretasiya qazandırmaq məqsədi güdür. Bu yolla, müəllifin öz oxucusu yaxud izləyicisinə estetik zövq bəxş edərək bədii idrak mədəniyyətinin inkişafına öz töhfəsini vermiş olur.

**Nəticə**

*Sonda deyə bilərik ki, unikal fizioloji mexanizmi ilə daxili harmoniyamızı bərpa edərək insanın mənəvi-ruhani vəziyyətindən xəbər verən yuxu, semiotik element kimi, nəinki tibbdə, həmçinin əbəbiyyatda və incəsənətdə də aktual mövzu olaraq antik dövrdən bu günümüzə kultural yaddaşımızın məhsulu olaraq körpü salmağa davam edir.*

**Ədəbiyyatın siyahısı:**


1. A.M.Nəbiyev Folklorda Fasiləsiz Transfer və yuxu paradiqmaları. "Elm və Təhsil", Bakı-2011, 341 səh.
2. Ziqmund Freyd. Yuxuların Yozumu. Qanun Nəşriyyatı, Bakı-2014, 580 səh.
3. Ziqmund Freyd. Bir İllüziyanın gələcəyi. Xan Nəşriyyatı. Bakı-2015, 88 səh.
4. Алан Дантес. Фолклор: семиотика и или психоанализ.Перев. с английского. Сост. А.С.Архетипова. М., «Восточная литература», 2003, 279 с.
5. Бурешова О., Буреш Я. Физиология непосредственной памяти. «Вопросы психологии», 1963, №6.
6. Веин А.М., Наменецкая Б.И.- Память человека, М.,изд-во «Наука», 1973, 107с.
7. Лосев А.Ф., Сонкина Г. А., Тахо-Годи А.А., Тимофеева Н.А., Черемухина Н.М., Античная Литература, М., Учпедгиз, 1963, 365
8. Мифы народов мира. М., 1991-92. В 2 т. Т.2. С.661
9. Смирнов А.А Психология запоминания. М.,изд-во «Просвещение», 1996
10. Kelly, Bulkeley. The Wilderness of Dreams: Exploring the Religious Meaning of Dreams in Modern Westwern Culture, SUNY Series in Dream Studies, State University New Yorkpress 1994, p 42.
11. Yung, C.G., Two Essays on Analitical Psychologhy, Translated by R. F. C.Hall, Princeton University Press1996, p 62-63.
12. Huxley, Aldous, Variations on Goya, " On art and Artists", Morris Philipson ed., London, press Chattoand Windus,1960), pp 218-19

**Алия Ахмедова**

**Сновидение как семиотический элемент в литературе и живописи**

Главная цель статьи определить использование сна в литературе как физиологический, так и психологический процесс. Почему автор использует фрагменты сновидение и в чем цель? - эти вопросы были привлечены к обследованию. Раскрывающий самые сокровенные мысли героя и автора, сон является отображением психологического состояния человека и используется как текст в тексте. В то же время сон - это литературный прием, которое определяет динамику событий в сюжете. Как психологический процесс и компонент текста сон - это семиотический элемент, который можно интерпретировать в понимании универсальных символов.

***Ключевые слова***: *символ, сновидение, смысл, литературный прием, психологический*

**Aliya Akhmadova**

**Dream visions as a semiotical element in literature and painting**

The main aim of the article is to identify the literary usage of the dreams as both physiologically and psychologically process? Why an author uses the dream fragments and what is the purpose of it? - These issues were attracted to investigation. Dreams being reflection of psychical condition of man in a literary work referred as text inside a text, which carries out psychologically mission of deciphering the character's and author's the very intimate thoughts. At the same time dreams are literary device which determines the dynamics of events in plot. As a physiological process and a component of text dreams are semiotical elements which can be interpreted in comprehension of universal symbols.

***Key words:*** *symbol, dreaming, meaning, literary device, psychological*

Redaksiyaya daxil olma tarixi: 21.09.2019
Çapa qəbul olunma tarixi: 11.10.2019

Filologiya üzrə elmlər doktoru, professor
**Aynur Sabitova** tərəfindən çapa tövsiyə olunmuşdur.